ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431

**Hümmətova Günel Saleh**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**f.ü.f.dok,Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi**
**gunelpeniyeva@mail.ru**

**Orcid ID: 0000-0002-89163484**

# TÜRK ŞAİRİ MƏHMƏD AKİF ƏRSOY POEZİYASININ ƏSAS İDEYA VƏ MƏNA YÜKÜ

**Annotasiya:** Türk dünyası ədəbiyyatının ən görkəmli ədiblərindən olan, öz “Istiqlal ” marşı ilə nəyinki Türk ədəbiyyatında, eyni zamanda Türk tarixində silinməz iz salan Məhmət Akif Ərsoy şeirlərinin ideya-bədii xüsusiyyətlərini araşdırmaq öz aktuallığın saxlayır. Məhmət Akif Ərsoy yaradıcılığına nəzər yetirsək hər bir sətrində vətən sevgisi,azadlıq təbliği,millət sevgisi, onların dərdinə daim yanmaq hissi öz əksini tapır.Eyni zamanda tədqiqat işində Məhmət Akif Ərsoy yaradıcılığının ümumi baxışı verilir. Həmçinin məqalədə şairin Türkiyyə ədəbiyyatında, poeziyasında yaratdığı ilklər izah edilmişdir. Məhmət Akif Ərsoy yaradıcılığı ədibin yazı üslubuna və metod xüsusiyyətinə görə iki istiqamətdə izzah olundu:

1.Təqlidi üsullu yazdığı poeziya nümunələri

2. Yeni üslub və vəzin seçimindən sonar qələmə aldığı realist üslubdakı şeirləri.

Eyni zamanda Məhməd Akif Ərsoy adının və dillərr əzbəri olan “İstiqlal” marşının xalqın məhsulu olması, lirik poeziyada ən çox, demək olarak ki, hamısı islam yönümlü olması probleminin araşdırılması əks olunub. Bununla yanaşı şairin Sahafat şeirlər kitabına daxil olan cildlər haqqında qısa məlumat verilmişdir.

**Açar sözlər:** Poeziya, ədəbiyyat, Məhmət Akif Ərsoy,realizm, naturalizm

**Annotasion:** Examining the ideological and artistic features of Mehmet Akif Ersoy's poems, one of the most prominent writers of the Turkish world literature, who left an indelible mark on Turkish literature and Turkish history with his "Istiqlal" anthem, remains relevant. If we look at Mehmet Akif Ersoy's creativity, love of the country, freedom promotion, love of the nation, and the feeling of burning for their pain are reflected in each line. At the same time, the research work gives an overview of Mehmet Akif Ersoy's creativity. Also, the firsts created by the poet in Turkish literature and poetry are explained in the article. Mehmet Akif Ersoy's creativity was explained in two ways according to the writer's writing style and method:

1. Samples of poetry written by imitation method

2. Poems in a realistic style that he wrote after choosing a new style and sermon.

At the same time, the investigation of the problem of the fact that the name of Mehmed Akif Arsoy and the "Istiqlal" march, which is memorized by languages, is a product of the people, and that most of the lyrical poetry, almost all of it, is Islamic-oriented, is reflected. In addition, brief information about the volumes included in the poet's Sahafat book of poems was given.

**Keywords:** Poetry, literature, Mehmet Akif Ersoy, realism, naturalism

**Giriş**

Məhmət Akif Ərsoy yaradıcılığı, poeziyası hər dövürdə istər ədəbi mühitin, istərə də ədəbi-tənqidin təhlil obyektində olubdur. Mövzunun aktuallığı zaman keçməsinə baxmayaraq hələdə Akif Ərsoy poeziyasını dərk etməyə, yeni əldə edilmiş fərqli düşüncə məhsullarını müxtəlif aspektlərdən tədqiq etməyə ehtiyacın olduğunu göstərir. Məhmət Akif Ərsoy "Istiqlal " marşı ilə dillərdə əzbərdirsə, onda onun poeziyasının hər birinin məna fərqliliyidə maraq doğurur. Şair poeziyasının müxtəlif aspektlərdən təhlilini bir arada cəmləşdirib təhlil obyektinə çevirmək mövzunun aktuallığını təşkil edir. Sahafat kitabının cildləri haqqında ümumi məlumat verildikdən sonar hər bir cildinin qısa xronikası əks edilməsi mövzunun aktuallığın təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Mövzunu tədqiq edərkən qarşıya bir neçə vəzifə qoyulmuşdur:

--- Məhmət Akif Ərsoy yaradıcılığının ilkin mərhələsinin üslubi faktorların aşkarlamaq;

---- Məhmət Akif Ərsoy poeziyasının məna yükün təyin etmək;

-----Məhmət Akif yaradıcılığını iki dövrə üslubi cəhətdən ayırıb fikir yürütmək;

------ "İstiqlal marşı"nın şairin yaradıcılığında və Türk ədəbiyyatındakı yerin müəyyənləşdirmək.

**Tədqiqatın metod və strukturu**. Tədqiqat müqaisəli üsuldan, təhlil metodundan istifadə edərək aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat aparılarkən bir neçə elmi yeniliyə nail olmuşdur ki, onlardan:

- Araşdırma zamanı şairin yaradcılığında üslubu xüsusiyyətə görə iki istiqamətə bölündüyü qənaətinə gəlindi
- Birinci istiqamətdə üslubi təqlidin özünü göstərdiyi fikri müəyyənləşdi;
- Ikinci dövründə isə şeirlərinin əksəriyyətində mövzunu realist və naturalist yöndən qələmə aldığı üslubi strukturu aydınlaşdırıldı.

**1.Məhmət Akif şeirlrində əsas ideya və məna yükü**

Böyük Türk şairi Məhməd Akif Ərsoy yaradıcılığında ən böyük rolu şairin atası Tahir bəy oynayıb. Demək olar ki, şairin ədəbi şəxsiyyətin formalaşması Tahir bəylə bağlıdır. Həmçinin Məhməd Akif Ərsoy Qərb və Şərq ədəbiyyatın dərindən mənimsəməyi və şeir oxumağı sevdiyi üşün ədibin bəddi yaradıcılığının formalaşmasında da məhz Qərb və Şərq ədəbiyyatının təsiri çox böyük olmuşdur. Beləki, şair oxuduğu hər bir bədii nümunədən geniş, zəngin məlumat əldə etmişdir ki, bu da əsərlərinin genişliyi və məna yükünün müxtəlifliyi və tutarlığında böyük özünü biruxə vermişdir. Məhz bundan irəli gələrək də mənzum hekayə forması seçərək burada ənənəvi ədəbiyyat mədəniyyətini əks etdirmişdi.Məhz bununla da diqqətlə, xüsusi seçilmiş,özünəməxsus janr müxtəlifliyi, metod fərqliliyi, məna yükünün ağırlığı ilə bütün ədəbi mühitə açıq olan şeir tipi yaratmağa qadir olmuşdur. Bununla belə, onun köklü ədəbi mədəniyyəti ona sadə bir şair deyil, şüurlu şəkildə işlənmiş və inkişafa açıq bir poeziya növünün öncüsü olmağa imkan verdi.Mehmet Akif şeirlərində Türk-İslam dünyasının bugünkü vəziyyətini, ictimai-siyasi və mədəni həyatını, bu həyatın çürüyən və əskik olan tərəflərini realist baxış bucağı ilə ifadə etmişdir.Burdanda belə fikir söyləməyə şərait yaranır ki, Məhmət Akif Ərsoy bədii yaradıcılığında bir fikir irəli sürərək ona əməl etməyə çalışmışdır ki, bu da"İncəsənət cəmiyyət üçün" anlayışına əməl etmək idi.

Əgər biz Mehmet Akifin poeziyasının yazılma üsuluna , quruluş və strukturuna nəzər salsaq görərik ki, ədibin poeziyası hekayə və nəsihət üzərində qurulub.Zaman-zaman didaktikliyi yüngülləşdirən bir yumor ön plana çıxır.Həmçinin şeirlərinin birr hissəsin araşdıranda burada zaman-zaman şövq, səmimiyyət kimi elementlər şeiri söhbətin bir parçası olmaqdan xilas edildiyinin şahidi oluruq. Elə götürək Mehmed Akifin ilk dəfə tanındığı "Səfahat" əsərin ki, bu əsərdə də Tevfik Fikrətin təsiri görünür. Ədib hər mütailə etdiyi , hər həmsöhbət etdiyi, hər şahidi olduğu hadisəsən təsirləərək qələmə sarılıb fikir, dərd və daxili hisslərin misralara tökürmüş. Bu əsərlə tanınsa da şairin çox-çox əvvəl şeirlər yazdığı və çap olunmuş və çap olunmamış çoxlu şeirlərinin olduğu məlumdur.Bu gün əlimizdə olan ilk şeiri 1892-ci ildə Baytar məktəbində yazılmış "Dəstur" adlı bəstədir.İlk şeirlərini "Hazine-i Fünun", "Mekteb", "Resimli Gazete" kimi bəzi dərgilərdə çap etdirdi.Məhhz bu ilk şeirlərində də  Ziya Paşa, Müəllim Naci və Əbdülhak Həmidin təsirləndiyi hiss edilir.Bu şeirlərdə onun quruluş baxımından müxtəlif formalar axtarışında olduğu, məzmun baxımından bəzi metafizik məsələlərə meylli olduğu görünür.Eyni şeir daxilində mövzu və duyğuların dəyişməsindən asılı olaraq saygac, misra forması, hətta dil və üslubu dəyişməyə cəhdlər olunduğu hiss olunur.Ən qədim şeirlərindən olan, əxlaq və xarakterinin əsasını təşkil edən Qurani-Kərimə aid şeiri 1895-ci ildə "Qurani-Kərimə xitab" adı ilə "Mekteb" jurnalında dərc edilmişdir. Bu məzmunlu şeirlərə daha sonar da qayıdaraqq yaradıcılığının bir çox hissəsində İslam dininin təbliği və həmin dinin mükəmməlliyini izah etməyə çalışmışdır. Demək olar ki bir neçə il ərzində yazdığı hər bir şeirin istər məzmununda, istərsə də janır,üslub, təxəyyül təlqini özünü göstərirdi. Bu da şairin bir növ adiliyinə, sıradan biri olduğunu hiss etdirməyə başladı. Nəhayət, Məhmət Akif Ərsoy 1908-ci ildən sonra o vaxta qədər sevdiyi və təqlid etdiyi üslubdan əl çəkərək təxəyyüldən uzaq, yalnız yaşadığı cəmiyyətin problemlərinin həlli yollarını axtaran bir şeir tərzinə keçdi.O, hətta köhnə şeirlərindən qalanları da yaddaşlarda qalmaması üçün silmişdir. Özünə yeni vəzn, yeni üslub, yeni struktur yaradaraq əruz vəznindən istifadə edərək mənzum hekayələr yazdı. Sanki şair öz yaradıcılıq yolunda yeni bir dönüş yaratmaq və özünəməxsusluğu ilə ədəbiyyat tarixində yeni bir cığır açmağı qərara almışdır. Elə bil şair yaradıcılı\ının ikinci dövrün yaratmağa başladı və uğurlu nəticə ilədə sonlancağına ümid edərək ədəbii fəaliyyətə hakim hökm oxuduğu kimi hər bir misralarında bir hökm verdi. Məhz yeni üslubunu şair özüdə çox maraqlı şəkildə izzah etməyə çalışaraq qeyd etmişdir ki,: "Sözüm ağac kimi olsun, tək həqiqət olsun". Məhmət Akif Ərsoy bu misraları ilə də şeirdə xəyalpərəst olmağı rədd etdi və hər bir şeirində ifadə edəcəyi məzmunu ön plana çəkdi. Eyni zamanda realist/naturalist yanaşmanı əks etdirən şeir üslubuna üstünlük verərək reallığı əks etdirməyi üstün tutdu.Mehmed Akifin səyahətləri zamanı əldə etdiyi təəssürat, təsbit və təhlilləri şeirlərində realist və canlı rəsmlərdə əks etdirərək ədəbiyyatdakı yeni dönüşünün və özünəxas yerinin olduğunu vurğulamaöı layiqincə bacardı.V ə beləliklə Məhməd Akif Ərsoy adını Türk poeziyasında ictimai mövzulara ən çox diqqət yetirən şair kimi adlandırmağa şərait yarandı. Bununla da ədəbbii mühitdə Akif sosialyönümlü, əxlaqi və idealist bir yol seçdi.Həqiqəti bütün çılpaqlığı ilə göstərməkdə məqsədi oxucunu insanların problemlərinə yönəltmək oldu.Demək olar ki, yoxsulları əsl siması ilə əks etdirən şeirlər türk ədəbiyyatında ilk dəfə Mehmed Akif tərəfindən yazıldı. Bununlada Türk poeziyasında yeni poeziyanın formalaşmasına şəraitin yarandığını qeyd etsək yanılmarıq."Cahillik, təəssübkeşlik, yoxsulluq, küfr, köksüzlük" onun poeziyasının ən mühüm mövzularına çevrildi.İctimai xarakterli şeirlərində ara-sıra lirikanı, mistisizmi də verməyi unutmadı ki, bu da poeziya janrının ən xarakterik xüsusiyyətlərrindən biri olmasından irəli gəlirdi. Ümumilikdə götürsək şairin poeziyasının əksər hissəsində islami lirika özünü biruzə verir.

Məhmət Akifin şeirlərindəki əruzun saitsiz istifadəsinə nəzər yetirsək deyə bilərik ki,Tevfik Fikrətlə başlayan əruzun saitsiz və xətasız istifadəsi Mehmed Akif şeirləri ilə zirvəyə çatdı. Beəlik, rahat bir türk dili Akif şeirlərində az qala hər bir əruz formasında öz ifadəsini tapmışdır.Bütün şeirlərini əruz vəznində yazıb. O, heç vaxt heca vəznindən istifadə etməyib. Biz əminliklə deyə bilərik ki, Məhməd Akif Ərsoy əruzu türkcəyə uğurla tətbiq edən üç mühüm

sənətçidən (Tevfik Fikrət, Yəhya Kamal) biridir.O, şeiri nəsrə yaxınlaşdırmaqda kifayət qədər ustadır və onun hər bir addımı uğurla sonlanılıb. Demək olar ki, onun hər bir cəhdi uğurludur

Ədibin dastanlarına da nəzər yetirsək şahidi olarıq ki, burda da bir ustalıq hiss eeilir. Bildiyimiz kimi divan ədəbiyyatında nəzm formalarından, xüsusən də məsnəvi mənzum formasından istifadə edilir.Onun ilk böyük dastanı "Çanaqqala şəhidlərinə" adlı şeiridir. İkinci böyük dastanı Bursanın işğalı ilə bağlı yazdığı "Bülbül" adlı poemasıdır. Üçüncüsü, "İstiqlal marşı" yazıb, Qurtuluş savaşından danışıb. Məhz adlarını qeeyd etdiyimiz hər bir dastanda ədibin bğyülk ustalığı, yaradıcılığının pik nöqtəsinin məhsulları olduğun qeyd edə bilərik ki, elə biri də Türk tarixinin. əsas atributlarının birini təşkil elən "İstiqlal marşıdır". Bu marşla ədib Türkiyə ədəbi tarixində, Türkiyə tarixində iz salmışdır.

Ədib şeirlərini Səfahət şeirlər kitabında toplayaraq köhnə və yeni hərflərlə şeir kitabı olaraq Türkiyədə ən çox nəşr olunan kitaba çevrildi.Şair "Səfahət" şeirlər kitabına "İstiqlal marşı"ın daxil etməyib. Səbəbini belə izah edir: "Çünki mən onu millətimin qəlbində dəfn etdim". Bu da şairin hər bir misrası ilə hər bir Türk vətəndaşının qəlbində yaşayan, beyinlərində, yaddaşlarında heç vaxt sökülməyəcək bir taxt qurulduğunu, heç zaman unudulmayacıöını qeyd etmişdir. Çünki, bir millətin var oluşu, bir millıtin milli mənıviyyatının varlığı onun dövlətinin dilindən, mədəniyyətindən və o dillə dövlətin hər bir vətəndaşının vətənpərvər olduğunu ifadə edən Himnindən asılı olduğun bilirdi. Bir də o misraların məna yükükn böyüklüyü onun o şeirlər kitabına sığmaazdı. Çünki, Akif Ərsoy vətənin torpağına, bayrağına, millətinin fəzilətinə, dilinə, sənətinə son dərəcə bağlı olan bir insan idi. "Mehmet Akif də qız və oğlanları təhsil almağa çağırır, bu yolda isə İslamın mühüm rol oynadığını söyləyirdi: Bu gün anasır- İslamı bir deni cereyan Sürüklüyor ki: Bakın, nerden eyliyor nebean, Felaketin başı, hiç şüphe yok, cehaletimiz, Bu derde çare bulunmaz-ne olsa-mektebsiz."(Güder,2015)

Bununla yanaşı şair yaradıcılı həyatıyla bahəm dünya görüşünün daha da inkişaf etdirib , formalaşdırmaöa da yüksək önəm verirdi. Beəli ki,Qərbdə inkişaf edən elm və texnologiya ilə yanaşı, bir çox əxlaqi davranışların da həvəskarıdır.Yenilikçi bir şair kimi yaşadığı dövrdə müşahidə olunan həddindən artıq yenilik meylinin dağıdıcı təsirlərinə qarşı şeirləri ilə sərhəd çəkməyə çalışmışdır.Fəal siyasətdə az iştirak edən Akif Ərsoy Əbdülhəmidin hərbi vəziyyətinə qarşı idi.Bir müddət İttihad və Tərəqqi Komitəsinin üzvü olsa da, avantürist daxili və xarici siyasətləri ilə İslama qarşı çıxan ziyalıların təsiri altında fəaliyyət göstərdikdən sonra İttihad və Tərəqqi Komitəsinə müxalif oldu.Akif islamçılıq adlı hərəkatda iştirak edərək İslam dininin yayılmasında yaxından iştirak edirdir. Buna görədə onun lirikasın "islam lirikası" adlandırsaq heç də yanılmarıq ki, məhz onun da "Ümmət şairi" kimi tanınması bunu fikrimizi ifadə edir.

**2. Məhmət Akif Ərsoyun poeziyasının qısa xülasəsi**

Mehmed Akifin gənclik illərində və sonrakı illərdə yazdığı, lakin "Səfahat"da yer almadığı şeirlərdə var. Biz burada Sahafat kitabına daxil olan bəzi şeirlərin kolleksiya adı altında ümumiləşdirərək qısa xülasəsini verməyə çalışdıq.

**Safahat kolleksiyasi və onun xüsusiyyətləri:**

Səfahət kitabına daxil olan Səfahət kitabı 1911-ci ildə qələmə alınmış şairin həm həcminə, həm də şeirlərinin sayına görə ən böyük əsəridir. Və bura 44 şeir daxildir. Bura əsasən mənzum hekayə tipli mətnlər daxildir.Fərdin ətrafında ictimai həyatın çürüyən tərəflərini ortaya qoyaraq diqqəti cəlb edən şeirlərlə yanaşı siyasi hadisələr, mistik hisslər, dünyəvi vəzifələr qeyd olunur.

“Süleymaniyyə kürsüsündə” şeiri 1912-ci ildə yazmışdır və tək bir şeirdən ibarət olmasına baxmayaraq məna yükü dolğun. Ifadə üsulu isə tam fərqli seçilmişdir. Burada əsasən mövzu İstanbuldan Buxaraya qədər bütün İslam dünyasının səfalətindən bəhs edir. Sonda isə çıxış yeri kimi Süleymaniyyə seçilib.

Məhmət Akif Ərsoyun 1913-cü ildə Qurani-Kərimin səkkiz ayəsinin və bir hədisin təfsiri edilmiş şeiri olan “Tanrının səsləri “- bu əsərində istefanın yanlış anlaşılmasına, tənbəlliyə, nadanlığa qarşı çıxır və İslam mesajını cəmiyyətə yaymağa çalışır.

Sahafat kolleksiyasına daxil olan digər bir şeiri də“Fatih kürsüsündə” adlanır ki, b unu da şair 1914-cü ildə qələmə alıb və bu şeiri bir az üslub və məna oşarlığına görə"Süleymaniye Kürsüsünde" adlı şeirə bənzəyir.İki hissədən ibarət tək şeir olan bu poeziya nümunəsində Məhmət Akif yanlış istefa və fatalist anlayışdan qaynaqlanan cəhalət və geriləmə izah edilərək,elə ideyaların yeni nəsillərə mübarizə və iş ruhu bəxş etmək məqsədi daşıdığını vurğulayır.

Digər bir poeziya nümunəsi olan “Xatirələr”də Akif Ərsoy Şərq-Qərb müqayisəsinin ən intensiv aparır və şairin getdiyi yerlərlə bağlı təəssüratlarını və sosial fəlakətlər qarşısında Allaha etdiyi duaları ehtiva edir.Eyni zamanda bura dörd ayə və iki hədisin təfsiri də daxil edilmişdir.

“Asim” cildi 1924-cü ildə qələmə alınmış və Səfahatın ən uğurlu cildi hesab olunan bu poeziya nümunəsi tək, uzun bir şeirdən ibarət olsada məzmun xətti geniş və rəngarəngdir. Çünki, nəzm nümunəsində şaiir Hocazade, Köse İmam, Asım, Emin kimi lirik qəhrəmanlar seçmişdir və hər bir qəhrəmanda prorotipləri ilə simvollanmışdır. Elə ilk qəhrəman olanHocazadə Mehmet Akifin özünü simvollaşdırır.Teatr quruluşuna malikdir və mənzum dastan tipinə uyğun gəlir.Əsas mövzu isə Birinci Dünya Müharibəsi illərində ailə daxilində yaşanan parçalanma və pozğunluq şeirin mərkəzini təşkil edir.Burada əsas ideya kimi ideal gənclik tipini ortaya qoyularaq, Asim və onun nəsli sabahın ümidi kimi vurğulanmışdır.Mehmet Akifin ən məşhur şeirlərindən biri olan “Çanaqqala Şəhidləri” Asımda yer alır.

“Kölgələr” cildi şairin son şeirlərindən ibarətdir.Bu əsərdə daha çox misra mənzum formasına üstünlük verilir.Sosial mesaj verməklə bağlı narahatlığın olmadığı yeganə cild hesab olunur.Bu əsərdə vətən həsrəti, ümidsizlik, içə dönüklük, dini həyəcan hissləri ifadə olunur.

**Nəticə**

Məhmət Akif Ərsoy poeziyasının təhlili zamanı gəlinən nəticələri ümumi birləşdirsəq belə qənaətə gəlmək olar ki, şair bir millətin həyatında, bir millətin qəlbində böyük bir iz buraxıb. Şair nəyinki, Türk millətinin ədəbiiyyat tarixində eyni zamanda hər dövrünün, hər əsrinin, tarixin hər sətrinin misralarında öz adın qıl hərflərlə yazıb. Akif Ərsoy imzası və Akif Ərsoy poeziyası realizmi ilə, İslami lirikası ilə, “Öz tükənməz eşqiylə qələmini Allah yolunda fəda edən bir qəhrəmana həsr olunur…”(Mehmed),“İstiqlal marşı” ilə böyyük bir çığır yaratdı Türkiyə poeiyasında. Aşağıdakı bir neçə nəticəyə gələ bilərik:

Elə şeirlər var ki, ibrətamiz, məlumatlı, vəhdət və bütövlük verir.

*Onun didaktik şeirlərində yumor, bəzən şövq, səmimiyyət kimi elementlər ön plana çıxır.

*Müharibə zamanı və müharibədən sonra qurtuluş və inkişafın ancaq dini qəbul etməklə əldə oluna biləcəyini və yalnız Qərbin biliklərinin əldə oluna biləcəyini müdafiə edirdi.

*Əsl realizm onunla birlikdə türk poeziyasına daxil oldu.

*Əsərlərində öz kədərləri, sevincləri, sevgiləri, kinləri görünmür. Onun bütün qayğısı cəmiyyətdir.

*İncəsənət haqqında sosial anlayışa malikdir.

*O, əsərlərində ictimai həyatın bütün sahələrini əks etdirmişdir.

*O, hətta küçələrdə danışılan dili də şeirlərində əks etdirə bilmişdir.

*Onun dili bəzən ağırlaşır.

*Güclü müşahidə qabiliyyətinə və hekayələri təsvir etmək və danışmağa böyük qabiliyyəti var.

*O, öz müşahidələrindən çox faydalandı.

*Təsviri və nəqli hekayəsi sayəsində poeziyasında canlı şəkillər çəkmişdir.

*Əruzu türkcəyə uğurla tətbiq etdi. O, heç vaxt heca sayğacından istifadə etməyib.

*Nəzmi nəsrə yaxınlaşdıranlardandır.

*Nəzər formalarına gəlincə, o, divan beytinin formalarına üstünlük verir və onların arasında ən çox məsnəvi formasından istifadə edir.

*Ədəbiyyatımızda mənzum hekayəçiliyin ən uğurlu adlarından biridir.

*O, bu şeirlərində gündəlik həyatı, ictimai həyatı uğurla təsvir etmişdir.

*Xüsusilə kasıblara, şikəstlərə, kimsəsizlərə mərhəmət hissi bu cür şeirlərdə özünü qabarıq göstərir.

*Şeirlərini "Səfahət" əsərində toplayıb.(Söner,2)

**Ədəbiyyat siyahısı**

1. Məhəmməd, Kekalov. / Öz tükənməz eşqiylə qələmini Allah yolunda fəda edən bir qəhrəmana həsr olunur...[Elektron resusr]
https://senet.az/bloq/oz-tukenmez-esqiyle-qelemini-allah-yolunda-feda-eden-bir-qehremana-hesr-olunur-485 qoyulma tarixi:15.04.2015
2. Söner, Sadıkoğlu . / Söner Sadıkoğlu ilə türkcə ədəbiyyatı/[Elektron resusr]
/https://www.sonersadikoglu.com/mehmet-akif-ersoy.html
3. Güder, Aslan Mehmet Hasan. /TÜRK ŞAİRİ MEHMET AKİF ƏRSOYUN ƏSƏRLƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ. Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın A V T O R E F E R A T I// Bakı, - 2016. [Elektron resusr]/
https://aak.gov.az/upload/dissertasion/ped/ped_n_gah_05_04_16.pdf
tarix: 2016